# Səyyar qəbullar


Böyük Pirəli kəndi.


Hacıalılı kəndi.

Yaşanılan ömür daima müəyyən problemlərlə dolu olur. Həyat mübarizədir və insan yaşadığı dövrdə çox çətinliklərlə qarşılaşır. Bəzən elə problemlərlə qarşılaşır ki, onların həlli tək özünün mübarizəsi ilə hasilə yetmir. O zaman xeyirxah insanlar onun çətinliklərinin həllində birgə mübarizəyə qoşulurlar. Axı xeyirxahlıq xalqımıza xas olan ən gözəl xüsusiyyətdir. İnsanların insan adının təsdiqidir xeyirxahlıq! Hər kəs öz gücü müqabilində bu missiyanı davam etdirərsə, insanların yaşam tərzində bu müsbət rol oynayar və oynayır.

Rayonumuzun sakinlərinin rifah-halının yaxşılaşdırılması və ictimai həyatın hərtərəfli inkişafı, mədəni-məişət qayğıları, onların problemləri rayon rəhbərliyinin həmişə maraq dairəsindədir. Elə buna görə də hər ay Qəbələ Rayon İcra Hakimiyyəti başçısı Səbuhi Abdullayev tərəfindən ayrı-ayrı qəsəbə və kənd əhalisi ilə səyyar qəbullar təşkil olunur.

Bu ilin aprel ayında səyyar qəbullar Böyük Pirəli, Hacıalılı, Tövlə və Topbağ kəndlərində keçirilmişdir. Bu qəbullar zamanı Səbuhi Abdullayev kənd sakinlərini qəbul etmiş, onların müraciətlərini dinləmişdir. Hüquq mühafizə orqanlarının, Qəbələ rayon İH yanında ictimai şura nümayəndəliyinin, xidmət sahələrinin rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi belə səyyar qəbullar zamanı icra hakimiyyətinin başçısı tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərdən, həmin işlərin həyata keçirilməsində göstərilən xüsusi diqqət və qayğıdan, eləcə də, Qəbələ rayonunda aparılan tikinti-quruculuq işlərindən, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən ətraflı danışılmışdır. Səyyar qəbullar zamanı sakinlər tərəfindən qaldırılan məsələlərin həll edilməsi istiqamətində RİH başçısı tərəfindən aidiyyəti üzrə müvafiq tapşırıq və tövsiyələr verilmişdir. Görüş tədbirlərində çıxış edən sakinlər onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.




Tövlə kəndi.


Topbağ kəndi.

**“Qəbələ səsi”.**
**Fotolar S. Umuyevindir.**

# Vətəndaş qəbulu



Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən növbəti dəfə keçirilən qəbulda Vətən müharibəsi şəhidlərinin ailə üzvləri və digər vətəndaşların müraciətləri, irəli sürdükləri təkliflər dinlənilmiş, qaldırılan məsələlərin bir qismi yerindəcə həll olunmuş, digərlərinin həlli nəzarətə götürülmüşdür. Vətəndaşlar onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

# ”Heydər Əliyev və Azərbaycançılıq ideologiyası“

Yeni Azərbaycan Partiyası Qəbələ rayon təşkilatında “Heydər Əliyev və Azərbaycançılıq ideologiyası” mövzusunda keçirilən tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və respublikamızın ərazi bütövlüyü uğrunda şəhadətə yüksəlmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. YAP Qəbələ rayon təşkilatının sədri Abil Ağasəfov çıxış edərək bildirib ki, Ulu Öndər Heydər Əliyev tərəfindən formalaşdırılan Azərbaycançılıq ideologiyası xalqın birliyini, milli kimliyini və dövlətçiliyin möhkəmlənməsini təmin edən əsas ideoloji xəttdir. Qeyd edib ki, bu ideologiya bu gün cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, ölkəmizin inkişafında və beynəlxalq mövqeyinin güclənməsində mühüm rol oynayır. Çıxış edənlər Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən Azərbaycançılıq ideologiyasının təhsil sahəsində mühüm istiqamətlərdən biri kimi xüsusi yer tutduğunu bildirərək gənc nəslin milli ruhda, vətənə bağlı və yüksək mənəvi dəyərlərlə yetişdirilməsinin bu ideologiyanın əsas məqsədlərindən olduğunu vurğulamış, milli-mənəvi dəyərlərin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından böyük əhəmiyyət kəsb etdiyini və gənclərin vətənpərvərlik ruhunda yetişməsində mühüm rol oynadığını qeyd etmişlər. Sonda Yeni Azərbaycan Partiyasının fəaliyyətində fəal iştirak edən bir qrup partiya üzvünə Fəxri Fərman, partiya sıralarına yeni qoşulanlara isə üzvlük vəsiqələri təqdim edilmişdir.

# Güclü siyasət və yekdillik

Vətənpərvərlik bitməz, tükənməz bir mövzudur. Bu bəşəriyyətin özülü və sonsuzluğa qədər varlığının həqiqi mənasıdır. Çünki vətənpərvərlik mənəviyyatın inikasıdır. Mənəviyyat isə insanın varlığının, onun mövcudluğunun; yer üzündə canlıların fərqlilik forması, insani tamlığıdır.

Mənəviyyat xarakterlərin özülüdür. Bir sözlə mənəyvyyat olmasa, vətənpərvərlik mövcud ola bilməz. İnsani duyğuları olmayanlar insan adına layiq ola bilməz. İnsan isə öz düşüncə tərzi ilə dünyaya göz açdığı birgə yaşadığı insanların məskənləşdiyi məkanı vətən sanar və dil, din, ideya yaxınlarını xalqı bilər. Vətənpərvərlər isə bu məkanları və birgə yaşadığı insanları, xalqını sevər və qorur. Bu yolda satqınlığa, bədnamlığa, faşistliyə, nasistliyə qarşı daima mübarizə aparar. Bax, belə insanlar mənəviyyatca zəngin, vətənpərvər sanılarlar. Vətənpərvərlər torpağını, vətənini paylaşmaz və satmazlar. Bu illərin, əsrlərin, yüzilliklərin, minilliklərin tarixi zəmininin apaydın faktları, dəlilləri ilə sübut olunmuş və olunur. Məgər tarix boyu baş verən müharibələrin məram və məqsədi əyani misal deyilmi?! Var-dövlət , sərvət əldə etmək, güclülüyünü bütün dünyada bərqərar etmək üçün baş verir bu müharibələr. Aid olmadığı əraziləri, torpaqları özəlləşdirmək, başqa torpaqlara aid olan təbii sərvətləri mənimsəmək, sitayiş etdiyi dinləri belə təkzib edərək, xalqları müstəmləkə, asılılıq vəziyyətinə salaraq ərazilərini genişləndirmək istəkləri müharibələrin məqsədidir. Belə "ideyalar" müharibə, savaş - ölümlərlə nəticələnər. Ən başlıcası insan qanı axıdılar. Müharibə hegemonluq niyyətilə edilən bir oyundur. Bu oyunda isə torpaq qanla "suvarılar", abad olmuş diyarlar xarabalığa çevrilər. İllər əsrlərə, əsrlər minilliklərə çevrildikcə də zaman bu keçmişləri unutmaz və tarix yaranar. Ən acımasız fakt, dəlil isə odur ki, bəşəriyyət mövcud olandan bəri bu müharibələr də mövcud olmuşdur, onlara qarşı müharibələr də. Sadəcə tarixi xronologiyaya istinad etsək bu hər birimizin yaddaşını təzələyər, illər, əsrlər dəyişdikcə, tarixi inkişaf - elm və həyat təcrübəsi artdıqca müharibələrin də forması dəyişir. Texnologiya təzələndikcə, ixtiralar gücləndikcə, çoxaldıqca müharibələrin taktikaları da dəyişir. Müharibələrin növlərinin öz kateqoriyaları var: barıt müharibələri, soyuq müharibələr, psixoloji müharibələr.

1990-cı illərin sonu və 21-ci əsrin əvvəlləri köhnə müharibələr yeni müharibələr dixotomiyası və qloballaşmanın yeni müharibə nümunələri yaratmasının şahidi oldu. Müharibələrin hansı növü olur-olsun nəticə etibarı ilə bir tərəf (və ya bir neçə tərəfin birgə tərəfdaşlığı ilə) o biri tərəfi hərtərəfli süquta yetirmək və güc qazanmaq iddiasını əsas tutur və bu zaman zərərçəkən xalq olur. Həm iqtisadi, həm cismani, həm də mənəvi ağrılar xalqın üzərinə düşür. Axı məntiqlə düşünərkən hər kəsə aydındır ki, müharibə siyasətin instrumenti (aləti)dir. Müharibələr insanların qanları ilə torpaqların “suvarılmasıdır”. Bax, elə torpaqlar da məhz buna görə doğmalaşıb, vətənləşibdir. 1990-cı illərdəki I Qarabağ müharibəsinin ağır nəticələri - hərtərəfli itkilər və son nəticə xalqın qan yaddaşında silinməz izlər buraxdı. Bu izlər 30 il xalqın öz nümayəndələrini öz vətənində məcburi köçkünə, öz ocağından qaçqına çevirdi. Cənnət kimi, əsrarəngiz gözəlliyə malik torpaqlarımız düz 4 il igidlərimizin qanına qərq olundu, tarixi abidələrimiz, sərvətlərimiz, ən adi məişətimiz belə yağmalandı, şəhər və kəndlərimiz xarabalığa çevrildi. Ancaq xalqın mənəvi itkisi daha cismani, fiziki itkilərindən qat-qat sarsıdıcı oldu. Həmçinin 1994-cü ilin may ayının 12-də bağlanmış "Atəşkəs” müqaviləsi illərlə, dəfələrlə pozuldu, xalq terrorlarla qarşılaşdı. Ölkə rəhbərliyinin apardığı siyasət, BMT-nin qəbul etdiyi Qətnamələr sənəd üzərində qaldı.

**(Ardı 4-cü səhifədə).**